**Prokurorluq və daxili işlər orqanlarında**

2020-ci ildə Prokurorluq orqanlarında işləyən işçilərin 75 nəfərini (7%-ni) qadınlar təşkil edir , onlardan da 8 nəfər qadın rəhbər vəzifələrdə çalışır.

Hazırda respublikanın daxili işlər orqanlarında 2658 qadın (1212 nəfər böyük, orta və kiçik rəis heyəti, 1447 nəfər mülki heyət) xidmət aparır ki, bu da şəxsi heyətin ümumi sayının təxminən 10 faizini təşkil edir və bu say ildən-ilə artımla müşayət olunur. Qadınlar əsasən post-patrul, istintaq, təhqiqat, kadrlarla iş, pasport, statistika, beynəlxalq əməkdaşlıq, tibb, mətbuat, yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qurumlarında kargüzarlıq işində, “ASAN ” xidmət və zəng mərkəzlərində xidmət edirlər.

**Hakimlərin cins üzrə bölgüsü**

| **İllər** | **Sayı, nəfərlə** | | **Cins bölgüsü, faizlə** | |
|---|---|---|---|---|
| | **qadınlar** | **kişilər** | **qadınlar** | **kişilər** |
| 2015 | 62 | 451 | 12 | 88 |
| 2016 | 61 | 444 | 12 | 88 |
| 2017 | 57 | 423 | 12 | 88 |
| 2018 | 84 | 487 | 15 | 85 |
| 2019 | 78 | 460 | 14 | 86 |
| 2020 | 93 | 475 | 16 | 84 |

***Cədvəldən görünür ki, 2019-cu illə müqayisədə hakim qadınların sayı 15 nəfər artmışdır.***